**Qəsidə**

Yayılıb hər tərəfə şöhrəti Heydər babanın,
Gedir hər yanda şirin söhbəti Heydər babanın.

Kiçiyin də, böyüyün də ən əziz insanıdır,
Vardır hər qəlbdə dərin hörməti Heydər babanın.

Atatürk sanki, bu dünyaya gəlibdir təzədən,
Bunu təsdiq elədi surəti Heydər babanın.

Yaradıb xeyli zamandan bəri atəşkəsi o,
Susdurub topları da, qüdrəti Heydər babanın.

Lissabonda elə bir şanlı zəfər çaldı ki, o,
Etdi heyran hamını cürəti Heydər babanın.

Satqını, xaini ifşa eləyərdi həmişə,
Vardı o kəslərə çox nifrəti Heydər babanın.

Necə Antey güc alırdı anası torpaqdan,
Eləcə, xalqı idi qüvvəti Heydər babanın.

Çox sevərdi elmi, incəsənət aləmini,
Şeirə lap başqa idi rəğbəti Heydər babanın.

Alimi, şairi, çox aqili heyrətdə qoyub,
Hər kiçik bir sözünün hikməti Heydər babanın.

Bir kitabdır, oxuyub biz onu dərk etməliyik,
Bənzəyir məktəbə şəxsiyyəti Heydər babanın.

Geriyə dönməlidir, zəbt olunan torpaqlar,
Bu idi fikri, qərarı qəti Heydər babanın.

Günü-gündən boy atıb, yurdumuz olduqca abad,
Gül açır arzuları, niyyəti Heydər babanın.

Öz gözəl ömrünü, öz xalqına qurban dedi o,
Oldu axırda bu da qisməti Heydər babanın.

Ən böyük şah əsəridir "Bakı-Tbilisi-Ceyhan",
Bizi məşhur elədi bu "Xətti" Heydər babanın.

Günəşin zərrəsitək qızıl hərflərlə bu gün,
Yazılıb tarixə hər xidməti Heydər babanın.

Qaldırıb göylərə üçrəngli zəfər bayrağını,
Gedir ağ günlərə bax, milləti Heydər babanın.

Nə qədər ki, qoca dünya yaşayır, vardır həyat
Duracaq dağ kimi bu dövləti Heydər babanın.

Sən də Mir Sabir, qəlbən sevinib fəxr elə ki,
Şeirinə oldu bəzək söhbəti Heydər babanın.

***Mir SABİR***

***Savalan. – 2007. – 11-13 dekabr.***